# XİN: "Jan-Noel Baronun Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı səsləndirdiyi iddiaları qətiyyətlə rədd edirik"

"Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baronun Milli Assambleyanın Xarici İşlər Komissiyasında çıxışı zamanı Azərbaycan-Ermənistan sülh prosesi və erməniəsilli şəxslərin məhkəmə işi ilə bağlı səsləndirdiyi iddiaları qətiyyətlə rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Jan-Noel Baronin Fransa Milli Assambleyasında Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialara dair şərhində bildirilib.

Mətbuat katibi qeyd edib ki, Azərbaycan ərazilərinə qarşı iddiaların mövcud olduğu Ermənistan Konstitusiyasının dəyişdirilməsi kimi iki ildən çoxdur müzakirə edilən legitim tələbin sual altına alınması və bunun yeni şərt kimi təqdim olunması qəbuledilməzdir. Əgər Fransanın iddia etdiyi kimi, həqiqətən də sülh sazişinin tezliklə imzalanmasını dəstəkləyirsə, o zaman Ermənistan tərəfindən müvafiq addımların atılmasını təşviq etməlidir.

Müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum edilmiş erməniəsilli şəxslərin azadlığa buraxılması çağırışlarına gəldikdə A.Hacızadə bildirib ki, bu cinayətləri araşdırmaq, mühakimə etmək Azərbaycanın haqqıdır və BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun martın 13-də dərc olunmuş rəyi də bunu bir daha təsdiqləyib, məhkəmə prosesinə qarşı aparılan qarayaxma kampaniyasının əsassız olduğunu sübuta yetirib.

"Ümumiyyətlə, digər ölkələrdə məhkəmə prosesinə müdaxiləyə cəhd edən Fransa tərəfinin, ilk növbədə öz ölkəsində siyasi təqibləri və müxtəlif aksiyalarda etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələri, Fransa parlamentində rüşvətxorluq və korrupsiya hallarının yayılması kimi faktları araşdırması daha uyğun olardı. Məsələn, eyni iclasda bir deputatın Fransada məhkəmə sistemindən siyasi rəqiblərə qarşı təzyiq vasitəsi kimi istifadə edildiyi halda, qanunun aliliyi ilə bağlı digər dövlətlərə müdaxilənin qəbuledilməzliyi ilə bağlı sualına cavabında nazirin Fransa məhkəməsinin qərarını şərh edə bilməyəcəyi cavabı da rəsmi Parisin ikili standartlarının göstəricisidir. Fransadan sülhə xidmət etməyən və regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik", - deyə XİN rəsmisi diqqətə çatdırıb.

---

Azərbaycan.- 2025.-19 mart (№60).- S.12.